İNNOVATIV PEDAQOJI PROSESDƏ PSIXOLOJI BARYERLƏR VƏ ONLARIN ARADAN QALDIRILMASI YOLLARI

Nuralı Zərbalı oğlu Çələbiyev,
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Ulduz Şamil qızı Paşayeva, baş müəllim
AMİ-nin Şəki filialı
n.chalabiyev@mail.ru

Xülasə

Son illər milli təhsil sistemimizdə həyata keçirilən islahatların gedişində elmi və texnoloji innovasiyalar təhsil məkanına sürətlə nüfuz edir. Bununla belə, açıq və ya gizli, aktiv və ya passiv? niyyətli və ya niyyətsiz olmasından asılı olmayaraq müxtəlif psixoloji baryerlər təhsil mühitində innovativ dəyişmələrə əngəl törədir. Məqalə innovativ pedaqoji prosesdə özünü göstərən psixoloji baryerlər və onların aradan qaldırılması probleminə həsr olunmuşdur.

Açar sözlər: innovasiya, texnologiya, psixoloji baryer, psixoemosional və informativ yüklənmə.

Məlumdur ki, pedaqoji fəaliyyət insan fəaliyyətinin ən mürəkkəb, həm də geniş yayılmış sahələrindən biridir. Cəmiyyət tərəqqi etdikcə bu fəaliyyət sahəsində çalışan insanların peşə yazarlığı, şəxsi və peşəkar keyfiyyətlərinin formalaşması və inkişafı, pedaqoji ustalığın yüksəldilməsi daim aktual problem olaraq qarşıya çıxır. Müasir dövrdə ənənəvi təhsil sistemindən **fasiləsiz, açıq və inkişafetdirici təhsilə keçid** təhsilalanların şəxsi təhsil və sosiomədəni maraqlarını reallaşdırmaq üçün geniş imkanlar açır. Bilik yaşadığımız müasir qloballaşan informasiya cəmiyyətində əsas dəyər mənbəyinə, əvəzsiz məhsuldar qüvvəyə çevrilir.

Bu gün təhsil sistemində baş verən köklü islahatların gedişində innovativ dəyişikliklər sürətlə genişlənir və dəriinləşir, təhsilin modernləşdirilməsinin zəruri amilinə çevrilir. Təhsil sahəsində **innovativ dəyişikliklər** məzmunca aşağıdakı cəhətlərlə səciyyələnir:

-təhsil müəssisələrinin maliyyələşdirilməsi və idarə edilməsi sahəsində ciddi dəyişikliklər baş verir;

-təhsilin məzmununda, yəni tədris planlarında bütün və ya ayrı-ayrı fənlərin tədris proqramları yeniləşdirilir.

-təhsil müəssilərinin və tədrisin təşkilində yeni texnologiyaların tətbiqi genişlənir;

Yeni formalaşmaqda olan təhsil sisteminin ənənəvi təhsildən prinsipial fərqi onun **texnoloji bazasının** zənginliyirdir. Ənənvi təhsildə texnoloji elementlər zəif inkişaf etmişdi, əsasən "üz-üzə" tədrisə və dərsliklərə əsaslanırdı. Yeni təhsil sistemi isə elmi və texnoloji resusrslara əsaslanan innovasiyalar bazasında təşəkkül tapır, İKT potensialına və onun reallaşdırılmasına əsaslanır.Təhsil sistemində həyata keçirilən köklü dəyişikliklər müəllimlərdən **yeni pedaqoji və metodik təfəkkür** əsasında innovativ dəyişikliklərin xarakterinə adekvat humanist dəyərləri qiymətləndirməyi və praktik fəaliyyətdə nəzərə almağı tələb edir. Bu isə öz növbəsində bir sıra səviyyələrdə ziddiyyətlərlə müşayiət olunur:

-məktəbin sürətli inkişafı tələbatı ilə pedaqoqların onu rallaşdırmaq imkanları arasında;

-peşəkar müəllimlərin artıq bərqərar olmuş iş üsulları və fəaliyyət səviyyəsi ilə cəmiyyətin və məktəbin müəllim innovatora yönəlmiş yaradıcı, elmi-pedaqoji təfəkkür səviyyəsi tələbi arasında;

-mövcud təhsil sistemində həyata keçiriləcək konkret dəyişikliklərlə onun dayanıqlığını və tamlığını qorumaq tələbləri arasında;

Məktəb təcrübəsi göstərir ki, pedaqoji sistemdə həyata keçirilən dəyişikliklər prosesində yeniliklərə qarşı müqavimət və maneələr qaçılmaz hadisələrdir.

Bir neçə onillik bundan əvvəl innovativ dəyişikliklər ayrı-ayrı məktəblərdə və ayrı-ayrı novator müəllimlər tərəfindən həyata keçirilirdisə, hazırda yeniliklərin tətbiqi və genişlənməsi bütövlükdə təhsil sahəsini əhatə etməkdədir. Yeniliklərin tətbiqi gedişində təbii olaraq bir sıra **sosial- psixoloji xarakterli maneələr** özünü göstərir ki, bunlar da innovativ dəyişikliklərin surətini ləngidir. Belə maneələr sırasında başlıca yerdə təhsil müəssisələrində uzun onilliklər ərzində formalaşmış keçmiş təcrübəni,yeniliklərə mühafizəkar mövqedən yanaşan yaşlı nəsli təmsil edən müəllimləri və formalaşmış stereotipləri misal göstərmək olar. Kollektivdə üstünlük təşkil edən mühafizəkar potensial , xüsusən rəhbər təhsil işçiləri , o cümlədən təhsil müəssisələrinin rəhbərləri yeni pedaqoji texnologiyaların mənimsənilməsinə və tətbiqinə meydan açan stimullaşdırıcı tədbirlərin həyata keçirilməsinə nəinki əksər hallarda liberal münasibət bəsləyir, hətta bəzən buna maneçilik törədirlər.

Təhsildə elmi və texnoloji innovasiyaların reallaşmasına əngəl olan əsas **psixoloji baryerlərə** aşağıdakıları aid etmək olar:

-təhsil işçilərinin yeniliklərə neqativ münasibətin yaranmasına səbəb olan konkret amillər;

-innovasiyalara neqativ münasibət bəsləyən kollektiv üzvlərinin sayı və psixoloji maneənin səviyyəsi;

-işçilərin neqativ reaksiyasının təzahür forması və onun xarakteri.

Psixoloji ədəbiyyatlarda, təhsildə yeniliklərin tətbiqinə əngəl olan psixoloji maneələri bir neçə forması qeyd olunur:

- passiv təzahürlü maneələr; (məsələn, müəllimdə işlədiyi kollektivdə yeniliklərin tətbiqinin mümkünlüyünə və real dəyişikliklərin baş verəcəyinə inamın, adət edilmiş iş formaları və metodlarının yaxşılaşdırılması istəyinin olmaması;

-təhsil məkanında çalışan müəllim və tərbiyəçilərin, rəhbər təhsil işçilərinin tipoloji xüsusiyyətlərinin və fiziki sağlamlığındakı maneələr.

-alternativləri qəbul edə bilməmə və konservatizm;

Ənənənin yaratdığı mənəvi- psixoloji iqlim və ideoloji stereotiplər innovasiyaların tətbiqinə mane olan subyektiv amillər kimi özünü göstərir.

Psixoloji baryerlər istənilən fəaliyyət sahəsində konservativ təsir gücünə malikdir. Onlar şəxsiyyətin xarici mühitin yeni şəraitinə adaptasiyası prosesinə mane olur. Belə maneələr **açıq** və ya **gizli, niyyətli** və ya **niyyətsiz** olmasından asılı olmayaraq kollektiv üzvlərinin yeni peşəkar vərdişlər əldə etməsində neqativ rol oynayır. Pedaqoji kollektivdə psixoloji baryerin səviyyəsi ilk növbədə yeniliyə neqativ reaksiya göstərən kollektiv üzvlərinin sayı və psixoloji baryerin təzahür formaları ilə müəyyən olunur.

Psixoloji baryerin bir sıra təzahür formaları mövcuddur:

1.Passiv təzahür formaları: məsələn, müəllimdə hal-hazırkı vəziyyətdə həmin kollektivdə innovasiyaların tətbiqinə zərurətin olmasına və bu dəyişikliklərin real nəticə verə biləcəyinə inamın olmaması; adət edilmiş iş formaları və metodlarının yaxşılaşdırmaq istəyinin yoxluğu; yeniliklərin həyata keçirilməsində şəxsi hazırlığın olmaması; yeniliklərin tətbiqi prosesində əlavə çətinliklərin yaranacağı qorxusu; yeni biliklərin və təcrübənin mənimsənilməsində meydana çıxacaq çətinliklərin şəxsi nüfuzun zəifləyəcəyinə səbəb olacağı təhlükəsinin yaratdığı qorxu.

2. İkinci qrupa aid psixoloji maneələr özlərinin **aktiv təzahürü** ilə seçilir. Onlar pedaqoji kollektivin bəzi üzvlərini yeniliklərin təşəbbüskarları olanlarla əlaqələri məhdudlaşdırması ilə səciyyələnir. Yeniliklərə qarşı çıxan kollektiv üzvlərinin əksəriyyətində nostalji hisslər, yad təcrübənin və iş formalarının tətbiqinin heç bir fayda verməyəcəyi və tezliklə öz əhəmiyyətini itirəcəyi barədə fikirlər üstün olur.

3. Üçüncü qrup psixoloji maneələr daha kəskin təzahürləri ilə diqqəti cəlb edir: Yeniliklərin tətbiqinə qarşı daha radikal mövqedən yanaşan mühafizəkar mövqeli bəzi müəllimlər yeni ideyaları nəinki dəstəkləmir, hətta innovasialara aid təlimatları qəsdən təhrif

edir, yeniliklərin tətbiqinin çoxlu maliyyə vəsaiti, maddi və insan resursları tələb etdiyi qənaətində olurlar.

Təhsildə innovasiyaların tətbiqində təzahür edən psixoloji maneələr əsasən **yaş amili, səriştəsizlik, yeni texnologiyaları mənimsəmək qabiliyyətinin olmaması, köhnə vərdişlər, ənənələr və streotiplərlə** bağlı meydana çıxır.

Pedaqoji ədəbiyyatlarda psixoloji maneələr çətinliklər, əngəllər kimi nəzərdən keçirilir. Məsələn, müəllimin tələbələrlə qarşılıqlı kommunikasiyası ilə bağlı meydana çıxan maneələr; gənc müəllimin peşəkar fəaliyyətə başlayarkən məktəb həyatına, pedaqoji prosesə adaptasiyası prosesində meydana gələn maneələr və s. Qeyd olunan nöqteyi-nəzərdən **məna, emosional, koqnitiv, taktiki** və **motivativ** maneələr təlim-tərbiyə prosesində özünü göstərən əsas maneələr kimi sadalanır. [4,s.19]

Araşdırılan problemə həsr olunmuş psixoloji və xüsusi ədəbiyyatlarda psixoloji maneələr birqiymətli olaraq yalnız **neqativ** deyil, həm də **pozitiv** təsir baxımından qiymətləndirilir, onun innovasiya prosesində **katalizator funksiyası** vurğulanır. Psixoloji baryerlər yeniliklərin təşəbbüskarı rolunda çıxış edən subyektləri fəallaşdırır, onları öz səylərini artırmağa məcbur edir, başlanğıc mərhələlərdə yol verilmiş nöqsanları görməyə və daha təkmil variantlar axtarmağa sövq edir.

Psixoloji baryerlər həm də **indikator funksiyasını** yerinə yetirir. Onlar operativ, obyektiv və etibarlı şəkildə yeniliklərin tətbiqi prosesində təşəbbüskarları məlumatlandırır, innovasiyaların tətbiqində yol verilmiş qüsurlar, kifayət qədər mükəmməl işlənilməmiş innovasiya elementləri üzərində yenidən düşünməyə, zəruri korreksiya işləri aparmağa təhrik edir. Psixoloji baryerlərin **neqativ** funksiyası isə innovasiyaların tətbiqi zamanı çətinliklərin aradan qaldırılması üçün zəruri şəraitin olmamasında əks olunur. Baryerlərin destruktiv, dağıdıcı funksiyası isə təsirinin aradan qaldırılması mümkün olmayan çətinliklərdə özünü göstərir. Bu halda müəllimin məktəbi və ya peşəni tərk etmək istəyi ilə innovativ fəaliyyət dayanmış olur.

Məlumdur ki, istənilən fəaliyyət sahəsində yeniliklərin tətbiqi insanlarda qorxu və həyəcan doğurur. İnnovasiyalara qarşı insanların mənfi emosiyaları psixoloji baxımdan adət edilmiş həyat tərzinin dəyişməsi prosesində yeni çətinliklərin, diskomfortun yaranacağı qorxusu ilə bağlıdır. Müasir dövrdə orta təhsildə **milli kurikuluma** əsaslanan təhsilə keçid İKT və kompyuter texnologiyalarının, yeni təlim metodlarının mənimsənilməsi və tətbiqi ilə əlaqədar bir sıra psixoloji baryerlər diqqəti cəlb edir. Pedaqoji işçilərin kompyuter savadlılığının artırılması ilə bağlı çətinliklər hələ də tam aradan qalxmamışdır.

Beləliklə, qeyd etmək olar ki, psixoloji baryerin əsasında duran səbəblərin spektri olduqca genişdir.

Elmi-psixoloji və pedaqoji ədəbiyyatın təhlili və mövcud pedaqoji reallıq belə qənaətə gəlməyə əsas verir ki, psixoloji baryerlərin aradan qaldırılması problemi ilə əlaqədar müəllimlərə peşəkar yardımın göstərilməsi zəruridir. Bu yardımın təşkilində yalnız psixoloqlar deyil, həm də təhsil müəssisələrinin rəhbərləri, metodiki xidmət sahəsinin işçiləri fəal iştirak etməlidirlər. Pedaqoji kollektiv üzvi olan hər bir şəxs özünün iş üslubunu və fəaliyyət tərzini yeni norma və tələblərə uyğunlaşdırmalıdır. Müasir dövrdə müəllimlərin əlavə təhsil yolu ilə innovativ fəaliyyətə hazırlanması yeniləşən təhsilin və məktəbin prioritetlərindən birinə çevrilir. Bunun üçün müəllimlər **şəxsi stereotipləri, dəyərləri və motivlər sistemini** innovativ fəaliyyətin məntiqinə uyğunlaşdırmalıdırlar.

Amerikan alimləri M.Albert və A.Xeleuri innovasiyalara qarşı müqavimətin zəiflədilməsinin bir neçə metodunu təklif etmişlər.

1. Yeniliklərin tətbiqinə başlanmazdan əvvəl təhsil müəssisəsinin işçiləri ilə dəyişikliklərin zəruriliyinə inam yaratmaq üçün təhsilləndirici-izahat işlərinin aparılması;

2. Tabeçilikdə olan işçilərin rəhbərlik tərəfindən qəbul ediləcək qərarın çıxarılmasında iştirakının təmin olunması, onlara innovasiyaların tətbiqinə müqavimətin səbəblərinin azad ifadə etmək imkanlarının yaradılması, əməkdaşların yeni şəraitə uyğunlaşdırılması üçün tələblərin asanlaşdırılması və dəstəyin göstərilməsi;

3. Maddi stimulların köməyi ilə müqavimət göstərənlərin neyterallaşdırılması;

4. Təhriketmə. Yeniliklərə yiyələnmədən işin itirilməsi təhlükəsinin labüdlüyinə inamın yaradılması.

Müəllimlərin innovativ fəaliyyətə hazırlığının formalaşdırılması problemi ilə əlaqədar bəzi müəlliflər (В.А.Сластенин, В.Л.Подымова) innovativ fəaliyyətə hazırlığın sistemli, refleksiv-fəaliyyət və fərdi-yaradıcı yanaşma konsepsiyasını irəli sürmüşlər.Həmin konsepsiyada müəllim hazırlığında 4 mərhələdə iş sistemi təklif edilir:

I mərhələ- müəllimin yaradıcı fəaliyyətinin inkişaf etdirilməsi, fərqləndirmək, formalaşdırmaq, yaradıcı pedaqoji məsələləri təhlil etmək qabiliyyətlərinin formalaşdırılması, həmçinin ümumi yaradıcı axtarış texnologiyalarının inkişafı;

II mərhələ -innovativ pedaqogikaya giriş, pedaqoji tədqiqat və elmi idrak metodologiyasının əsaslarının mənimsənilməsi.

III mərhələ - innovativ fəaliyyətin mənimsənilməsi;

IV mərhələ - yeniliklərin pedaqoji prosesə daxil edilməsi ilə əlaqədar eksperimental meydançada praktik iş, eksperimental işin nəticələrinin izlənilməsi, peşə fəaliyyətinin özünütəhlili, korreksiyanın həyata keçirilməsi.

Təhsil sistemində psixoloji xidmət sahəsində çalışan məktəb psixoloqlarının innovativ layihələrin həyata keçirilməsinə əngəl törədən baryerlərin aradan qaldırılmasında fəal iştirakı zəruridir. Bu məqsədlə təhsil müəssisələrində **treninqlər** təşkil oluna bilər. Treninq zamanı yalnız baryerlərin aradan qaldırılması deyil, həm də məktəbin inkişafında mühüm əhəmiyyətə malik olan pedaqoqların şəxsi inkişafı təmin olunur. Treninq məşğələlərinin keçirilməsi gedişində psixoloji yardımın qarşısında aşağıdakı vəzifələr qoyula bilər:

- relaksasiya üzrə tapşırıqlar;
- həyəcanlılığın aradan qaldırılmasına aid tapşırıqlar;
- senzitivlik treninqi;
- konfliktlərin yaradıcı həll edilməsi treninqləri;
- kommunikativ keyfiyyətlərin inkişafı.

İnnovativ pedaqoji prosesdə psixoloji baryerlər probleminin təhlili göstərir ki, təhsil müəssisələrinin rəhbərləri və innovativ layihələrin təşəbbüskarlarının mövqeyi və iradəsi bu prosesdə əsas amil kimi dəyərləndirilməlidir.

Təhsil sisteminin bütün pillələrində dərinləşən islahatlar və onların gedişində meydana çıxan elmi və texnoloji innovasiyaların tətbiqində məktəb rəhbərləri kollektivin fəallaşdırılması istiqamətində məqsədyönlü iş aparmalı, pedaqoji prosesdə nəticəyönümlülüyü təmin etmək məqsədilə **optimal əmək gərginliyi şəraiti** yaradılmasını təmin etməlidirlr. Kollektivin fəaliyyətinin təkmilləşdirilməsində **şəxsiyyətlərarası inteqrasiya, kollektiv üzvlərinin funksional və təşkilatı birliyinin təmin edilməsi zəruri şərt** kimi daim diqqət mərkəzində saxlanılmalıdır.

Ədəbiyyat

1. Гамезо М.В., Петрова Е.А.,Орлова Л.М. Возрастная и педагогическая психология. М., «Педагогические общество России». 2002, 224 стр.
2. Педагогика. Педагогические теории, ситемы, технологии. /Под ред. С.А.Смирнова). М., «Академия», 2003, 512 стр.
3. Təhsilin aktual problemləri. B., ARTPİ, 2007, 132 səh.
4. Цицюрская Л.Д. Психологические барьеры при инновациях в сфере образования. Вестник КАСУ,2005, № 1.
5. Щуркова Н.Е. Педагогическая технология. М., «Педагогическое общество России», 2002, 224 стр